**UOT 81 41; 801. 7**

# QƏDİM NAXÇIVAN XALÇALARINDA PROTOTÜRK DAMĞALARI VƏ YAZI İŞARƏLƏRİ

**Firudin Rzayev**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent,**
**AMEA Naxçıvan Bölməsi, Onomastika şöbəsinin müdiri,**
**Naxçıvan, Azərbaycan**
**firudinrzayev@gmail.com**
**Orcid: 0009-0008-3291-791X**

**Xülasə**

Məqalədə Naxçıvan xalçalarında mövcud olan qədim türk mifi və damğalarından bəhs olunur. Naxçıvan xalçaçılıq muzeyində saxlanan 50-dən artıq xalça və onlardakı naxışlar bu istiqamətdə tədqiq olunmuşdur. Bununla bərabər ekspedisiyalar zamanı kəndlərdəki xalçalardan da nümunələr götürülmüşdür. Bu yazıda qədim Naxçıvan xalçaçılıq sənətində türk damğa işarələri və yazıların tarixi dövrü də faktlarla sübut edilmişdir. Onların hansı qədim türk tayfalarına aid olduğu və hansı xalqlar arasında yayımı, daşıdığı mənalar mənbələr əsasında müqayisəli izah olunmuşdur. Bu mədəniyyət nümunələrindəki mif və damğalar Naxçıvanın ən qədim mədəniyyət mərkəzi kimi mövcudluğunu təsdiq edir. Qaynaqlar üzrə tədqiqat zamanı Naxçıvan xalçalarındakı naxışları formalaşdıran damğa və işarələrin qədim türk-Azərbaycan xalqına aidliyi də sübut edilmişdir. Bu xalçalarda qədim mif və yazı işarələrinin də bütövlükdə türklərdə yayıldığı da mənbələrdə öz əksini tapır. Xalçaçılıq sənətinin ən qədim dövrlərdən mövcudluğu da elmi faktlarla sübut olunmuşdur. Tədqiqat zamanı bu xalçalardakı bəzi işarələrin erməni, fars və digər xalqlara aidliyi tarixi faktlarla təkzib edilmişdir. Tədqiqat zamanı yeni elmi nəticələr ortaya çıxarılmışdır. Bu isə xalçaçılıqla bağlı gələcək tədqiqatlar üçün elmi əhəmiyyətə malikdir.

**Açar sözlər:** Naxçıvan, xalçaçılıq sənəti, tayfa, mif, damğa, yazı işarələri

## В ДРЕВНЕ НАХЧЫВАНСКИХ КОВРАХ ЗНАКИ, НАДПИСИ И ЩТЕМПЕЛИ ПРОТОТЮРКОВ

**Фирудин Рзаев**
**Доктор философии по филологии, доцент**
**Нахчыванского отделения НАНА, заведующий отделом Ономастики**
**Нахчыван, Азербайджан**

**Резюме**

В статье говорится о древних турецких мифах и символах, найденных на коврах Нахчывана. По этим направлениям были изучены более 50 ковров и их узоров хранящихся в Нахчыванском музея ковроткачества. В тоже время в ходе экспедиции были взяты образцы ковров в селах Нахчыванской территории. В данной статье исторический период тюркских клейм и надписей в древнем искусстве ковроткачества Нахчывана подтверждается фактами. На основе источников сравнительно объяснены к каким древнетюркским племенам они принадлежат и среди каких народов, значения, которые они носят. Мифы и символы в этих культурных примерах подтверждают существование Нахчывана как старейшего культурного центра. В ходе исследовании источников также было доказано, что знаки и щтемпели образующие узоры на Нахчыванских коврах, принадлежали древнему тюрко-Азербайджанскому народу. В источниках отражено также, что древние мифы и письменные символы на этих коврах широко распространены в целом у тюрков. Существование искусства ковроткачества с древнейших времен доказано научными фактами. В ходе исследования выяснилось, что некоторые

знаки на этих коврах по политическому направлению были отнесены к армянам, персам и другим народам, но их отроверганы историческими фактами. При исследовании были выявлены новые научные результаты. Это имеет научные значение для будущих исследований ковроткачества.

**Ключевые слова:** Нахчыван, ковроткачество, племя, миф, клеймо, письменные знаки.

## STAMPS AND WRITTEN SIGNS ON PROTO-TURKISH ON ANCIENT NAKHCHIVAN CARPETS

**Firudin Rzayev**
**Doktor of Philosophu on Philology, Ass. professor**
**Nakhchivan department of ANAS,**
**Head of Onomastics department**
**Nakhchivan, Azerbaijan**

**Summary**

The article talks about ancient Turkish myths and symbols,which was found on Nakhchivan carpets. More than 50 carpets and their patterns on Nakhchivan carpet weaving museum were explored from this direction. At the same time, during the expeditions, samples were taken from the carpets in the villages. In this article, the historical period of Turkish hallmarks and inscriptions on Nakhchivan carpet weaving art is proved by facts. Which ancient Turkic tribes they belong to and among, which peoples, the meanings they carry have been comparatively explained on the basis of sources. Myths and symbols in these cultural examples confirm the existence of Nakhchivan,as the oldest cultural center. During the researching on the sources, it was also proven, that the marks and signs forming the patterns on Nakhchivan carpets belonged to the ancient Turkish-Azerbaijani people. It is also reflected in the sources, that the ancient myths and writing symbols on these carpets are widespread in the Turks, as a whole. The existence of the art of carpet weaving since ancient times has been proven by scientific facts. During the research, some of the signs on these carpets are Armenian, Persian, and other peoples, and historical facts have disproved them and new scientific results were revealed. And this is of scientific importance for future research on carpet weaving.

**Key words:** Nakhchivan, carpet weaving art, myth, stigma, writing marks.

**Aktuallıq.** Ən qədim sivilizasiya mərkəzlərindən biri olan Naxçıvan ərazisində xüsusi mədəniyyət nümunələrindən olan xalça naxışlarındakı simvolik rəmzlərin hansı tarixlə səsləşdiyi və hansı mifoloji mənalar daşıdığı tədqiq edilməmişdir. Xalça naxışlarında qayaüstü piktroqrafik yazı işarələri və rəsmləri, arxeoloji mədəniyyət nümunələri və coğrafi adlardakı prototürk tayfa adları və mifik inanc əlamətləri, dünya ictimaiyyətinə bu gün də öz qədimliyini tanıtmaqdadır. Bu tarixi faktlar ərazinin ibtidaidən aliyə doğru daima prototürk inkişafının-sivilizasiyasının ocağı olduğunu, bəşəri sivilizasiyalardan özünəməxsus əlamətlərlə seçildiyini bir daha sübut edir. Antik mənbələr, salnamə yazıları və qədim türk mifologiyasına dair mənbələrə istinadən xalça naxışlarının araşdırılması xüsusi aktuallq kəsb edir.

**Annotasiya.** Xalça naxışlarında m.ö. VIII-I minilliklərdə ərazidə yaşamış tayfa inanclarının olması məsələsi müqayisəli şəkildə tədqiq edilməmişdir. Naxçıvan xalça naxışlarında qədim türk mifoloji inanclarının olması ərazi mədəniyyətinin bu gün də mədəniyyət nümunələrində qaldığını göstərməklə bu mədəniyyətin qədim Azərbaycan tayfaları mifində yer aldığını tam sübut edir. Bu isə ərazi xalça naxışlarının mifoloji aspektdən öyrənilməsi araşdırmanın elmi yeniliyinin əsas şərtlərindən sayılır.

**Metod.** Məqalədə tarixi-müqayisəli, linqvistik, təsviri və qarşılaşdırma metodlarından istifadə edilmişdir.

**Giriş.** Naxçıvan ərazisinin bu cür ən qədim dünya sivilizasiya mərkəzlərindən biri olması, m.ö. I əsrin sonu, eramızın I əsrinin əvvəllərində yaşamış Strabonun "Coğrafiya" əsərində [18, 837-92], eramızın I əsrində "bəşər nəslinin ilk beşiyi" kimi adlanması və "Nuhun saldığı ilk şəhər"

kimi təqdim olunması İosif Flaviynin yazılarında [6, 14; 7, 57, 93], "Naksuana" şəklində təkcə Qafqazın deyil, bütün Şərqin ən böyük şəhərlərindən biri kimi yer alması isə, K.Ptolomeyin "Coğrafiya"sında öz əksini tapmaqdadır [13, XXII]. Bununla bərabər ərazinin digər coğrafi adları da II-XIII əsrlər əcnəbi tarixçiləri Plutarx, Korneli Tatsit, Kvint Krutiy Ruf, Arrian Marseli, Alban tarixçiləri M.Xorenski, F.Buzənd, Eqişe, K.Gəncəli və başqalarının yazılarında qeyd edilməklə, Naxçıvan şəhəri tarixi bir şəhər kimi göstərilmişdir. Biz bu qədimliyin mənbə və antik müəlliflərin əsərlərində yer aldığına xeyli sayda məlumatlarda rast gəlirik [15, 21-23; 16, 43-54].

Naxçıvan diyarının bütün göstərilən tarixi mədəniyyət nümunələrindəki qədimlik, bu işarə miflərin və daşlardakı piktroqrafik rəsmlərin xarakterinə müqayisəli nəzər saldıqda, bu işarələrin ərazi xalçalarında da təkrarı bu sivilizasiyanın ibtidaidən aliyə doğru inkişafını tam olaraq təsdiq edir. Naxçıvan ərazisinin türbə, məqbərə, qala və s. tikililərinin quruluşundakı damğa işarələr kimi xalça mədəniyyəti nümunələri də, qədim Azərbaycan-türk mədəniyyətinin özünəməxsus beynəlmiləl sivilizasiyasından xəbər verir.

Bu cür heyrətamiz qədimliyi özündə yaşadan əsaslı maddi-mədəniyyət nümunələrindən biri olan Naxçıvan qədim xalçaçılıq sənəti öz ilmə və naxış işarələri ilə tarixi yaddaşımızın nişanələrini günümüzə qədər gətirərək, bu mədəniyyəti də dünya ictimaiyyətinə təqdim etməkdədir.

Naxçıvan xalçaları üzərindəki naxışlar xalqımıza məxsus qədim mifik təfəkkürün, etnoqrafik amillərin daşıyıcıları olmaqla bərabər, minillərin qədimliyinin də simvolik rəmzi işarəsi kimi, xalqın tarixi, adət-ənənələri, məişəti və s. amilləri özündə birləşdirir ki, bu da xalqın kimliyinin tarixi möhürləridir.

Naxçıvan xalçaları üzərindəki tarixi prototürk damğa işarələri onların daşıdığı mənalar və digər mifik düşüncələrlə bağlı naxışlar demək olar ki, bu istiqamətdən tədqiqata cəlb edilməmişdir. Bu istiqamətdəki tədqiqatlarda yalnız XVI əsrdə Azərbaycanın digər şəhərlərində olduğu kimi Naxçıvanda da xalçalığın həm bədii səviyyəsi, həm də istehsal həcminin artması, öz inkişafının xüsusi mərhələyə çatması önə çəkilmiş, buradakı texniki xüsusiyyətlər təhlil edilmişdir. Bununla bərabər zərif və yaraşıqlı "Naxçıvan" xalçalarının Yaxın Şərq və Avropa ölkələrində qiymətləndirilməsi, bu xalçaların texniki və bədii xüsusiyyətlərinə görə Qarabağ xalçaları ilə uyğun olduğu üçün Naxçıvan xalçalarının tədqiqatçılar tərəfindən "Qarabağ qrupuna" daxil edilməsi kimi fikirlər yer almışdır. Biz bu istiqamətdəki yazılara diqqət etdikdə L.Kərimov, R.Əfəndiyev kimi araşdırıcıların yazılarında Naxçıvan xalçaçılıq sənətinin "Qarabağ xalçaçılıq məktəbinin davamı" olduğu məlumatlarına rast gəlirik [ətraflı bax, 5, 21-34; 10, 19-27; 11, 21-30]. Digər yazılarda "Naxçıvan xalçaları" adını daşıyan xalça və xalıların uzunsov formada daha çox istehsal olunduğu, bu xalçaların ölçüsünün əsasən 100 x 150 s.m.-dən 160 x 260 s.m.-ə qədər ölçüdə dəyişdiyi, bir kvadrat desimetrdə təxminən 35 x 35 ilmə, bir kvadratmetrdə isə 122 min ilmə olduğu kimi məsələlərə diqqət yetirilmişdir [21].

Lakin bizim fikrimizcə, bu sənət "Qarabağ xalçaçılıq məktəbinin davamı" olmamış, Naxçıvan ərazisində xalçaçılıq daha qədimdən təşəkkül tapmaqla, özünəməxsus inkişaf yolu keçmişdir. Bu fikrimizin doğruluğunu xalçalar üzərindəki m.ö. minilliklərə aid qədim türk yazı işarələri və damğa naxışlar və onlarla bağlı qədim tarixi faktlar da tam olaraq sübut edir.

Xüsusi olaraq qeyd edək ki, son dövrlər akademik İ.Həbibbəyl və V.Muradovun birgə hazırladıqları "Naxçıvan xalçaçılığı: ənənə və müasirlik" adlı monoqrafiyalarında göstərilən rəmzi işarələr, yüz səhifəyə yaxın həcmdə yerləşdirilmiş yüzlərlə xalça rəsmlərindəki rəsm, naxış işarə və rəmzlər bu sənətin məhz Naxçıvana aid olduğunu birmənalı sübut edir. Xalçalardakı naxış, qədim türk damğa işarələri və türk mifik inancı, xüsusi rəmzlər bu sənətin heç bir sənət üzərində deyil, müstəqil inkişafını "Naxçıvan Xalçaçılıq Məktəbi" olaraq özünəməxsus şəkildə formalaşdığını ortaya qoyur [9, 195-265].

Biz bu sənətin Naxçıvanda yüksək səviyyədə inkişaf etdiyinə dair bu cür mühüm faktlara Şərur, Şahbuz, Culfa, Ordubad bölgələrinin ərazilərinə təşkil edilmiş elmi ekspedisiyalarda rast gəlirik. Bu bölgələrdəki Axura, Alışar, Aşağı Aralıq, Xok, Muğanlı, Siyaqut, Şahtaxtı, Buzqov, Cəhri, Vayxır, Biçənək, Keçili, Türkeş, Xoşkeşin, Qazançı, Ərəfsə, Bist, Gənzə, Xurs, Kilit, Kotam və b. kəndlərin qəbirüstü xatirə abidələrində xalçaçılıqla bağlı rəsmlərlə rastlaşırıq.

Bildiyimiz kimi, orta əsrlər dövründə qəbirüstü abidələrdə dəfn olunan şəxsin sənət və peşəsi haqqında müəyyən təsvirlər həkk olunurdu. Bu abidələrdə hana, kirkid, daraq, usta təsvirləri də verilmişdir ki, bu həmin qəbirlərdə dəfn olunan şəxslərin xalçaçılıq sənət ilə məşğul olduğunu göstərir. Naxçıvan xalçalarının qədimliyini onların üzərindəki tarixi m.ö. minilliklərə gedən naxış işarələr də sübut edir.

 

Xalçaçılıq muzeyindən götürdüyümüz bu xalçaların ilmə naxışlarına diqqət etdikdə, biz onların ortasındakı müasir əlifbamızda yer alan **X** hərfinə bənzər yanakı qoyulmuş işarələrlə rastlaşırıq. Bu  işarələr qədim türklərdə **E** hərfinin "ev" mənasındakı işarəsidir ki, bu tarix m.ö. III minilliyə söykənməklə Naxçıvan ərazisində yerli sakinlər olmuş Kassi türklərində təkrarlanmış [1, 36-41], və onlardan şumerlərə, sonrakı dövrlər isə Orxon-Yenisey yazılarında ağızları qapalı şəkildə **-bş** səslərini ifadə edərək "baş" mənasını daşımışdır [ 12, 53; 14, 39].

Qeyd edək ki, işarənin bir tərəfi oğuzların Kayı və Bəydilli tayfalarına məxsus ,  bu damğa işarələrdə [ 16, 211-217], eləcə də qədim şərq tarixinə dair yazılarda  şəklində ilkin qurulan "yurd, ev" mənasını daşımışdır [20 , 122].

Biz Naxçıvan xalçalarına diqqət etdikdə, onların içərisində xeyli sayda xalçalarda ən qədim tarixi dövrlərimizlə bağlı naxış işarə yazılarımzla rastlaşırıq ki, burada m.ö. III-I minilliklərlə bağlı mifik işarə və rəsmlər yer alır. Aşağıda gördüyümz xalçalardakı qədim səkkizguşəli ulduzlar və dünyanın yaranması

  

haqqında dörd cəhəti əks etdirən svastik işarə nümunələrlə yanaşı, biz xalçalardan götürülmüş naxışlarda Azərbaycan türk mifində xüsusi yeri olan qədim qam-şamanizmlə bağlı Toğan quşu rəsmlərinin təsvirinə də rast gəlirik. Məlum həqiqətdir ki, Rusiya hakimiyyəti altına düşdüyümüz dövr siyasi məqsədlə Zərdüştlük farslara aid edilmişdir. Lakin tarixi faktlar bu inancın türklərə

aidliyini sübut edir.Bildiyimiz kimi Zərdüşt və qam-maq-şaman türk mifi haqqında ilkin məlumat verən yunan tarixçisi Xsanti [m.ö. 625-465] olmuşdur. Kiçik Asiyanın Sard şəhərində yaşayan bu tarixçi, Herodotdan da əvvəl Urmiya gölünə qədər olan əraziyə bələd olmuşdur. İlk əvvəl Herodot, daha sonra isə Dəməşqli Nikolay onun yazılarından istifadə edib, məzdəizm haqqında məlumat vermişlər. Qədim salnamələrin məlumatlarında Zərdüşt Makedoniyalı İsgəndərdən 258 il əvvəl yaşamışdır. Maqlar xalqın başına gələn bütün müsibət və fəlakətləri bilən III əsr filosofu Parfiosa görə isə “maq” Allaha sitayiş edib, onun elmi sirlərinə yiyələnənlərə deyilirdi [2, 166-168]. Əgər burada Zərdüşt və qam-maq-şamançılıq haqqında yunan tarixçisi Xsantinin ilkin məlumatına istinad etsək, məlumatda qeyd olunan Urmiya əraziləri qəm Naxər ölkəsinə məxsus ərazilər olmuşdur və burada şamançılığın maqların inanc əlamətləri də m.ö. minilliklərə, VIII əsrin sonlarına təsadüf edir [15, 81-116].

Əgər biz bu xalçaların ortasındakı müxtəlif naxışlı qədim dövrlərə aid işarələrə diqqət etsək, onların dünyanın yaranmasına dair dörd cəhətin bu  svastik işarəsini əks etdirdiyini, bununla yanaşı onlara artırılmış dörd əlavə xətlərin isə  dünyanın yaranmasında onun dörd ünsürdən (su, torpaq, od, hava) formalaşmasının nümayiş olunduğunu görürük. Bu işarələrin həm qaya rəsmləri, memarlıq abidələri həm də qədim Naxçıvan xalçalarında öz əksini tapması da bu sənətin Naxçıvan ərazisindəki özünəməxsus inkişafını və qədim tarixə söykəndiyini sübut edir.





Mənbələrdən də bizə məlumdur ki, bu işarələr orta tunc dövrünə, m.ö. III minilliyə aid Gəmiqaya rəsmlərində də yer alır və bu faktlar işarələrin xristianlıqla heç bir əlaqəsi olmadığını, bunun türk mifik təfəkkürünün damğa işarəsi olduğunu tam olaraq sübut edir [-F.R.].

Biz aşağıda göstərilən Naxçıvan Xalçaçılıq Muzeyindən götürdüyümüz xalçalarda da qədim mifoloji inanclarımızın izlərini görürük. Bu xalçalardakı qədim naxış rəsmlərində də m.ö. V-IV minilliklərlə bağlı türk mifik təfəkkürünün öz izlərini, naxış variantları ilə günümüzə qədər daşındığını görürük. Xüsusi olaraq qeyd edək ki, işarələrə qədim türk inancı ilə bağlı naxışlar, svastik işarələr yönündən yanaşdıqda, burada qədim Naxər- Naxçıvan ərazilərimizdə m.ö. V minillikdən yerli sakinlər olmuş Kas türklərinin inancında yer alan Koyaş Tanrısının- Günəş Allahının simvolik rəmzi işarəsi də öz əksini tapır. Aşağıdakı xalçalarda yer alan bu işarələr bizim Tanrı məbədlər, xristianların biz İslamı qəbul etdikdən sonra sahib çıxaraq adlarını “kilisə” qoyduğu tikililərin qapı və pəncərə atğılarında da təkrarını görürük.

  

və o, kainatı zülmətdən azad edərək, insanların rahat həyatının vasitəçisi kimi seçilirdi [4, 130-131; 5, 17-21]. Bu xalçalarda günəş simvolik işarəsi  gördüyümüz kimi çoxguşəli ulduz misalında sol xalçanın ortasında əsas naxış işarə kimi yer almış, m.ö. V minillikdə Kassi türklərində Suriyaş işıq Tanrısını tərənnüm edir. Bu mifoloji baxış sağ tərəfdəki xalçaların sol yan  sırasında və ortasında  əsas rəmzi işarə olaraq yer almışdır. Əgər bütün bu Naxçıvan xalçalarındakı naxışlara diqqət etsək, burada göstərilən naxış işarələrlə yanaşı biz həm də naxışlarda hərf işarələri naxışlar yerində təsadüf edirik ki, Gəmiqaya rəsmlərində   bu yazı işarələr həm də xüsusi piktroqrafik məna daşımaqla təkrarlanırlar. Bunların hər biri ayrılıqda əski türk mifik təfəkküründə yer alan həm günəşi, həm də ümumilikdə oturaq həyata keçmə tarixi prosesini xarakterizə edirdilər. Bu yazı işarələrindən Gəmiqaya işarələri bu əraziyə təşkil olunmuş ekspedisiya zamanı oradakı rəsmli daşlardan, bəzi yazı işarələr isə C.Cəfərovun və Ə.Fərzəlinin monoqrafiyalarından götürülmüşdür [3, 51, 89-98; 8, 17-19].

Qədim Naxçıvan xalçalarının bir qismində biz altı və səkkiz guşəli ulduz rəsmlərinə də təsadüf edirik ki, bu işarələrin də xalqın əsas rəmzlərindən olması çox qədim bir tarixi dövrlə səsləşir. Birinci iki xalçadakı əsas naxışlar olan bu

 

səkkizguşəli ulduzlar bəzək məqsədi ilə yer alsa da, onların ən qədim tarixi yaddaşımızdan bu sənət əsərinə adlaması danılmaz bir həqiqətdir və biz bu damğa işarələri Naxçıvan memarlıq sənətində də tez- tez müşahidə edirik.

Sağ tərəfdəki xalçanın ortasında yer alan altı guşəli ulduz rəmzli işarə isə Xəzər türklərinə məxsus olmuşdur. Biz yazılarımızda da tarixi faktlara istinadən bu ulduz işarəsinin Şahbuz rayon Türkeş, Culfa rayon Xoşkeşin və Camaldın kəndlərinin qəbirstanlığındakı əski məzar daşları üzərində təkrar olunduğunu qeyd etmişik. Bildiyimiz kimi Xəzər türkləri uzun müddət yəhudiləri

öz əsarəti altında saxlamış, bu damğa işarə mədəniyyəti-altıguşəli ulduz da onlardan yəhudilərin inanc və əski mədəniyyətinə adlamışdır [17, 70-76].

Qeyd edək Naxçıvan xalçaçılıq sənətindəki səkkiz və altıguşəli ulduz rəsmləri ən azı m.ö. III minilliklə səsləşir. Türk mədəniyyət abidələrində səkkizguşəli ulduzun tarixi çox qədim zamanlara gedir. Qədim şumerlərdə səkkizguşəli ulduz heroqlif-işarə olaraq, "tanrı, səma, ulduz" anlamını daşıyırdı. Bu astronomik işarə 45 dərəcə bucaq altında üst-üstə qoyulmuş iki kvadratdan ibarətdir. Kvadrat dördtərəfli fiqur olduğundan, dörd istiqamətə, dörd fəsilə, həyatın dörd əsasına, yəni, "torpaq, hava, su, atəşə" işarədir.

Bidiyimiz kimi, istənilən yüksək mədəniyyətli xalqın işğal altına düşməsinə baxmayaraq, işğalçı dövlətlər belə bəzən bu mədəniyyətdən bəhrələnmişlər ki, biz xeyli sayda bu cür tarixi faktlarla qarşılaşırıq.

Nümunə olaraq qeyd edək ki, bu mədəniyyət, tarixi mənbələrə görə, oğuzların və qıpçaqların bayraqları üzərində tayfa və ya nəsillərin damğa işarələri, məmlüklərdə "qoçqar", Çingiz xanın ilk bayrağında qara aypara, Böyük Səlcuq dövlətində, Səfəvi xanədanında "ikibaşlı qartal" (toğrul), bars (bəbir), "ay-ulduz" (ay-günəş), Qaraqoyunlu dövlətində "qoç", Qızıl Ordada "xan damğası", "baltavar", "daraq damğa", Əmir Teymurda "and" damğası və s. həkk edilmişdir [20, 178-179].

Məsələyə bu kontekstdən yanaşanda qədim çağlardan müasir dövrümüzə qədər çətin və şərəfli yol keçmiş Azərbaycan bayraqları, o cümlədən Naxçıvan xanlığının yeni aşkar edilmiş döyüş bayrağı [22] təkcə türkçülüyün daşıyıcısı kimi deyil, ortaq türk rəmz əlamətlər sisteminin, bayraq ənənələrinin bir sahibi kimi dəyərləndirilməlidir.

Biz qədim xalçaçılıq sənətindəki naxışlara diqqət etdikdə, burada türk damğa işarələri, mifik inanc əlamətləri ilə yanaşı rəmzlərdə daşınan mənaların türklərdən ərəblərə keçməsi faktı ilə də rastlaşırıq. Aşağıda gördüyümüz bu xalçalarda isə, türk mədəniyyəti əlamətlərinin İslam dini inancına təsiri də göz önündədir.





Buradakı sol xalça üzərində biz əski türk şamançılıq mifində yer alan Toğan quşlarını, onların arasındakı naxış işarəsi içində dünyanın dörd cəhəti haqqındakı svastik işarəni görürük. Bununla bərabər xalçanın yuxarı sol küncündə isə ərəb dilində yazılmış 1947–ci il toxunma tarixini izləməklə yanaşı, sağ tərəfdəki xalçada məscid ornamentlərinin əlamətlərini də görürük. Bildiyimiz kimi ümumən istər memarlıq, istər xalçaçılıq, istərsə də digər sənətkarlıq növlərində, ornament quruluşları qədim türk tayfalarına aiddir. Burada məscidin quruluş təsvirini əks etdirən ortadakı göy xətli türbənin kənarlarında dörd qütb və dini türbə naxışları da əski dövrlə səsləşən qədim türk işarə naxışlarıdır.

Məlum həqiqətdir ki, Rusiya hakimiyyəti altına düşdüyümüz dövr siyasi məqsədlə Zərdüştlük farslara aid edilmişdir. Lakin tarixi faktlar bu inancın türklərə aidliyini, şamançılığın bu gün də belə yakut, çuvaş kimi türklərdə qaldığını görürük. Yuxarıda da qeyd etdiyimiz kimi hələ m.ö. VI minillikdə şamançılıq Asər türklərində də mövcud olmuşdur. Asərlərin Asmaq

tayfaları, Maq aslar-Şaman aslar isə, Yunan çarlarına məsləhətlər vermiş, onları dünyanı dərkə istiqamətləndirməklə, idarəçilikdə də onlara yardım etmişlər [15, 53-92].





Bu xalçalardakı yuxarda göstərilən rəsmlər təkrar olunmaqla xüsusi olaraq qeyd edək ki, bir daha bu işarələrə diqqət etsək, biz burada səkkizguşəli ulduzlarla yanaşı, onlarda dünyanın **dörd cəhətini** əks etdirən svastik işarə də görürük və bu iki xalça üzərində isə qam-şamançılıqla bağlı Toğan quşu rəsmlərini də görürük.

Maqlar xalqın başına gələn bütün müsibət və fəlakətləri bilən, III əsr filosofu Parfiosa görə isə, "maq" Allaha sitayiş edən, onun elmi sirlərinə yiyələnənlərə deyilirdi [51, 166-168]. Göstərilən nümunələr qədim Naxçıvan xalçalarında m.ö. minilliklərə aid naxışlarla zəngin ölduğunu bir daha sübut edir.

**Nəticə.** Bütün bu tarixi sübutları ümumiləşdirsək, nəticə olaraq deyə bilərik ki, ümumiyyətlə tarixi proseslərdə istənilən bir xalqın ibtidaidən aliyə doğru inkişafı zərurətdən doğmuş, onlar dünyanı, təbiəti dərkdə öz məişətlərində müxtəlif mifik düşüncə, mifoloji inanc adətləri yer almışdır. Naxçıvan xalçalarında qeydə alınan bu mifoloji işarələr bir daha ərazinin qədim türklərin Ana yurdu olduğunu, m.ö. V minilliklərdən bu işarələr Azərbaycan türklərinin mifoloji inancında yer aldığını sübut edir. Onlardakı müxtəlifliklər isə onların mənsub olduqları hər bir tayfanı və nəsli fərqləndirmək amilinə xidmət etmişdir. Bu işarələr təkcə xalçalarda deyil, hər bir tayfanın yaratdığı memarlıq abidələrində də təkrarlanmaqla, xalqın minillikləri özündə təkrarlayan yaddaşında əbədiləşmişdir. Ümumiyyətlə, tarixi proseslərdə istənilən bir xalqın ibtidaidən aliyə doğru inkişafı zərurətdən doğmuş, onların həyatında müxtəlif mifik düşüncə, məişət adətləri də yer almaqla yanaşı sənətkarlıq, o cümlədən də xalçaçılıq sənəti bunun bariz bir nümunəsi kimi özünü təqdim etməkdədir. İstər yazılı dastanlarımızın Drezden, Vatikan kilisələrindən tapılması, istərsə xalçalarımızın Avropa və digər xristian muzeylərində mövcudluğu, Azərbaycan xalq mədəniyyətimizin və tarixi qədimliyimizin danılmaz sübutlarıdır.

## ƏDƏBİYYAT

1.Atakişi Celiloğlu Kasım. Sümerce Kesin Olarak Türk Dilidir. İstanbul: MOR, 2001, 151 s.
2. Azərbaycan Tarixi, I cild, (ən qədim zamanlardan XX əsrədək), Bakı: Azərnəşr, 1994, 680 s.
3. Cəfərov C.İ. Milli etnik yaddaşın izi ilə. Bakı: Səda, 2005, 171 s., s. 51, 89-98;
4. Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. Москва: Наука,1956, 485 s.
5. Əfəndiyev R. Azərbaycan xalq sənəti. Bakı: İşıq, 1984, 203 s.
6. Иосиф Флавий. Иудейские древности/ Пер. с греческого Г.Г. Генкеля, т. I, СПб., 1900 716 с.
7. Иосиф Флавий. Иудейские древности. Пер. с греческого Г.Г. Генкеля, т. II, СПб., 1900, 420 с.
8. Фарзали Аждар. Ноев Ковчег и Гямигая- Гобустанский алфавит. Баку: Полиграф, 2005, 302 с.
9. İ.Həbibbəyl və V.Muradov. Naxçıvan xalçaçılığı: ənənə və müasirlik. Bakı: Elm, 2017, 283 s.

10. Керимов Л. Азербайджанский ковер. Т. I. Баку – Ленинград: 1961, 186 s.
11. Kərimov L. Azərbaycan xalçalarının naxış elementlərindən nümunələr. Bakı: Elm, 1983, 130 s.
12. Qeybullayev Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 278 s.
13. Птолемей Клавдий. Руководство по географии/Пер. К.С.Апта и В.В.Латышева//Античная география. Москва: Географиздат, 1953, 368 c.
14. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı: Yazıçı, 1993, 400 s.
15. Rzayev F.H.Naxçıvan əhalisinin etnogenezi tarixindən (miladdan öncə VI-III minilliklər). I c. Bakı: ADPU-nun mətbəəsi, 2013, 528 s.
16. Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən (miladdan öncə VI-III minilliklər). II c. Bakı: ADPU-nun mətbəəsi, 2013, 588 s.
17. Rzayev F.H.Naxçıvan memarlıq abidələrində prototürk mifi və damğa işarələri// AMEA Naxçıvan Bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, Axtarışlar, Naxçıvan, 2018, № 1, s. 70-76
18. Страбон. География в 17 книгах. Пер. статья и комментарий Г. А. Стратановского. Москва: Наука,1964, 941 c.
19. Yusifov Y.B. Qədim şərq tarixi. Bakı: Bakı Universitet, 1993, 496 s.
20. John Foley. The Guinnes Encyclopedia of Signs and Simbols.// Guinnes Publishing Ltd., 1993, 435 s.
21.http://www.baki-xeber.com/layihe/19580.html
22. http://strateq.az/arashdirma/9105/%E2%80%8Bnaxcivan-xanliginin-yeni-askar-olunmus-dovl% C9% 99t-bayraqlari-fotolar.html

**Rəyçi:** Azərbaycan Milli Elmlər Akademiyası
sənət.e.d., prof. Kübra Əliyeva
əməkdar incəsənət xadimi